# Gəncədə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ümumşəhər tədbiri keçirilmişdir





**Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevin, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürkün, millət vəkilləri Pərvin Kərimzadə və Müşfiq Cəfərovun, idarə, müəssisə, təşkilat və hüquq mühafizə orqanları rəhbərlərinin, həmçinin ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə dahi şairin şəhər mərkəzində ucaldılmış abidəsi ziyarət edilmiş, abidə önünə gül dəstələri düzülmüşdür.**



Şəhərin Cavadxan küçəsində təşkil olunmuş “El şənliyi”ndə Gəncə Dövlət Dram Teatrı aktyorlarının təqdimatında “Xəmsə” adlı ədəbi-bədii kompozisiya göstərilmişdir. Sonra tədbir “Ozan” qədim milli musiqi alətləri ansamblının, “Xəmsə” ritm qrupunun, “Göygöl” Dövlət Mahnı və Rəqs Ansamblının, “Gəncə qönçələri” və digər musiqi kollektivlərinin çıxışları ilə davam etmişdir.

Ümumşəhər tədbirində Gəncə Uşaq Rəssamlıq və Uşaq İncəsənət məktəblərinin, habelə Uşaq Gənclər İnkişaf Mərkəzi yetirmələrinin əl işlərindən ibarət sərgi də nümayiş olunmuşdur.

“Gəncə sənətkarları” bölməsində keramika üzərində rəsm, səbət toxuma, ağac üzərində oyma, misgərlik, dulusçuluq və digər qədim sənət növləri, Gəncə Dövlət Kukla Teatrı kollektivinin təqdimatında Nizami Gəncəvinin “Yeddi gözəl” poemasından “Xeyir və Şər” nağılı nümayış edilmişdir. Tədbirdə Gəncə idmançılarının şahmat, ağırlıq qaldırma, güləş və digər növlər üzrə çıxışları da maraqla qarşılanmışdır.

Tədbirdə Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət Evinin, Samux rayon Sərkar Uşaq Musiqi Məktəbinin kollektivləri də iştirak etmişlər. Gəncə Dövlət Filarmoniyasının önündə konsert proqramı ilə davam edən tədbir çərçivəsində Gəncə Urban Mərkəzində “GƏNCƏSƏNƏT” və “GƏNCƏKİTAB” sərgi-satış yarmarkası da təşkil olunmuşdur. Sərgi-satış yarmarkasında müxtəlif növ sənətkarlıq və incəsənət nümunələri, habelə xeyli sayda yerli və dünya ədəbiyyatı inciləri satışa çıxarılmışdır.

***Sabir ƏLİYEV,***
***“Azərbayvan”***

Azərbaycan.- 2021.- 13 oktyabr.- S.6.